# Azərbaycan və Türkiyənin dostluğu sarsılmazdır, əbədidir!

## Türkiyənin veteran zabitləri və müharibə qaziləri "Xalq qəzeti" redaksiyasında

***❐ Azərbaycan və Türkiyə döyüşçülərindən formalaşdırılmış Qafqaz İslam Ordusunun 100 il əvvəl–sentyabrın 15-də Bakını daşnak-bolşevik və digər düşmən qüvvələrdən azad etməsi təntənələrində iştirak etmək üçün bugünlərdə ölkəmizin qonağı olan bir qrup türk zabit və qazi veteran Azadlıq meydanında bu əlamətdar hadisəyə həsr olunmuş və iki ölkənin prezidentlərinin iştirak etdiyi hərbi paraqdda iştirak etdikdən sonra Azərbaycan və Türkiyə şahinlərinin Bakı buxtası üzərində nümunəvi uçuşlarını paytaxt ictimaiyyətinin nümayəndələri ilə birlikdə seyr etdilər.***



Əllərində iki ölkənin bayraqlarını dalğalandıran, Azərbaycan--Türkiyə dostluq və qardaşlığının şəninə şüar və transporantlar sərgiləyən gənclər, bütövlükdə nəhəng izdiham qardaş ölkənin yaşlı nəsil zabit və qazilərini sevgi və sayğılarla qarşıladı. Şahinlərin böyük coşğu ilə izlənilən uçuşları bitəndən sonra 100 il əvvəl Bakıya xilasklarlıq missiyası ilə gəlmiş türk hərbçilərinin sonrakı nəsil davamçıları ölkəmizin kütləvi informasiya vasitələrinə müsahibələr verdilər.

Biz də türk zabit və qazi veteranlarla müsahib olduq, redaksiyamız yaxında yerləşdiyindən, onları kollektivimizlə görüşə dəvət etdik. Təklifimiz məmnunluqla qəbul edildi.

Bu görüş şəhərin müxtəlif yerlərində keçirilən bayram şənliklərinin qonaqlarından müsahibələr alan əməkdaşlarımız üçün xoş bir sürpriz oldu. Necə deyərlər, qədəmləri ölkəmizdə mübarək sayılan qardaşlarımızla belə şərəfli bir gündə doğma divarlarımız arasında görüşmək, onların ürək sözlərini dinləmək və oxucularımıza da çatdırmaq fürsəti göydəndüşmə oldu, hamımızda yüksək əhval-ruhiyyə yaratdı.

"Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov xalqımızın bayram sevincini bölüşməyə gəlmiş, keçirilən müxtəlif görüşləri iştirakları, təbrikləri və xoş arzuları ilə şərəfləndirən hörmətli bir heyətin üzvlərini səmimi salamladı. Gələn il 100 yaşını qeyd etməyə hazırlaşan ölkənin ən qocaman gündəlik ictimai-siyasi qəzetinin ilk nömrəsinin Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı demokratik şəraitdə ərsəyə gəldiyini vurğulayan redaksiya rəhbəri bildirdi ki, cümhuriyyətin süqutundan sonra onun nəşr etdirdiyi ilk dövlət qəzetinin bazasında və əksər əməkdaşının iştirakı ilə "Kommunist" adı ilə buraxılan qəzetimiz həmişə ümumi tərəqqi ilə bağlı olmuş və xalqımızın maraqlarına sadiq qalmağa çalışmışdır.




Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev qəzetin o dövrkü fəaliyyətini "Azərbaycan həyatının güzgüsü" adlandırmışdır. Ötən əsrin sonlarında qəzet ümumxalq hərəkatını fəal dəstəkləmiş və müstəqilliyin astanasında xalqa xidmət məramı ilə fəaliyyətini "Xalq qəzeti" adı ilə davam etdirməyə başlamışdır. Qəzet redaksiyası ötən bir əsrdə ölkəmizin professional jurnalistika məktəbi kimi öz ənənələrini yaratmış və öz davamçılarını yetişdirmişdir.

Həsən Həsənov daha sonra qeyd etdi ki, ötən bir əsrdə qəzetin səhifələrində qardaş Türkiyə ilə bağlı müxtəlif forma və səviyyəli materiallara daim məmnunluqla yer ayrılmışdır. Bu mövzuda ölkəmizdə elmi tədqiqatlar da aparılır. Həmin araşdırmalar Azərbaycan –Türkiyə əlaqələrinin son bir əsrlik mənzərəsini qiymətləndirməkdə ciddi və obyektiv mənbə hesab olunur. Qəzetin repressiya olunmuş əməkdaşlarına və müəlliflərinə qarşı irəli sürülən ittihamlardan biri də "Türkiyəyə rəğbət" və "türkçülük düşüncəsi" olmuşdur.

Azərbaycan müstəqillik qazandıqdan sonra qardaş ölkənin həyatı, köklü maraqları, iki ölkə arasında genişlənən münasibətlər "Xalq qəzeti"nin daimi mövzularındandır. AXC zamanında və dövlət müstəqilliyimizin ikinci dəfə bərpasından sonra qardaş Türkiyənin Azərbaycana göstərdiyi müstəsna dəstək barədə qəzetdə silsilə yazılar verilmişdir. Qafqaz İslam Ordusunun Azərbaycandakı xilaskarlıq missiyası ilə bağlı qəzetin səhifələrində saysız-hesabsız yazılar dərc olunmuşdur. Bu mövzu son nömrələrimizdə daha geniş yer tutur.

Heyət adından redaksiyaya gəlişindən məmnunluq duyduqlarını bildirən istefada olan **general-leytenant Namiq Kamal Çalışqan** qeyd etdi ki, tarix iki ölkə və xalq arasında münasibətləri bütün dünya üçün örnək olan bir məcraya yönləndirmişdir. 1918-ci ildə bir neçə cəbhədə döyüşlər aparan və ağır durumda olan Osmanlı dövləti türk düşmənlərinin soyqırımına məruz qalmış və müstəqilliyini elan etmiş azərbaycanlı qardaşların aqibətini öz taleyindən ayrı saymamış, igid oğullarını dərhal onun harayına göndərmişdir. Bu gün biz bu hünərin və sədaqətin dünyaca ünlü üzağlığına yığışmışıq. Böyük Atatürkün dediyi kimi, Azərbaycanın sevinci həmişə bizi də qürurlandırmışdır, kədəri isə ortaq ağrımız olmuşdur. Müdrik Heydər Əliyev isə çağdaş durumumuzu bir millətin iki dövləti kimi dəyərləndirməklə ortaq taleyimizi və birgə yolumuzu bizə dahiyanəliklə anlatmışdır. Xoşbəxlikdən, bu gün biz bir əsr əvvəlki ağrılarımızın əvəzi olaraq sevincimizi bir yerdə paylaşırıq.

Rəşadətli türk ordusunun keçmiş zabitləri və türk düşmənlərinə canlı sipər çəkmiş qazilər Bakının azad edilməsi təntənələri, iki ölkənin prezidentlərinin iştirakı ilə keçirilən hərbi parad, səma ulduzlarının dostluq və qardaşlığımızın uca səviyyəsini əks etdirən səma uçuşları barədə duyğu-düşüncələrini qürur və həyəcanla ifadə etdilər. Onlardan bir neçəsini oxucularımıza təqdim edirik.

**Əhməd Daşqın:** – Son dərəcə qururlu və məmnunuq. Bir əsr əvvəl müstəqilliyini elan edəndə cəmi bir neçə yüz əsgəri olan, sovetlər birliyi süqut edəndə də eyni vəziyyətdə olan Azərbaycanın indi çox güclü ordusu var. Bu gün hərbi paradda biz bu ordunun ən müasir texnika və yüksək döyüş qabiliyyətini görüb ürəkdən duyğulandıq. Şahinlərin uçuşları isə iki ölkənin ordusunun türk düşmənlərinə layiqincə cavab verə biləcəyinin dünyaya nümayişi oldu. Bu gün dünya gördü ki, prezidentlərimiz çiyin-çiyinə, hərbi güclərimiz bir meydanda, xalqlarımız eyni amal və düşüncə yolundadır. Bu yolun başlanğıcı 1918-ci ilin ağır, qanlı döyüşlərində qoyulub. Biz bir əsrdən sonra bu şərəfli yoldan bir daha birlikdə keçdik.

**Səfər Qaraqoyunlu:**–Bu günlər böyük bir zəfərin sorağı ilə yenidən bir yerdə olduq, sevinclərimiz bir-birinə qovuşub təntənə selinə döndü. Qəhrəmanlıq həmişə qürur doğuran, yeni hünərlərə səsləyən bir məktəbdir. Bu məktəbi babalarımız bizə ən böyük miras kimi əmanət ediblər. Tarix göstərir ki, biz bir yerdə güclü və hər şeyə qadirik. Bu gün təkcə Bakının zəfər tarixini deyil, birliyimizin qüdrətini də birlikdə bayram edirik.

**Əhməd Kəndigəl:**– Tanrımızdan çox razıyıq. Bir əsrdə bizi necə qüvvətli, düşmənləri necə zəlil etmişdir. 100 il əvvəl Bakını qan gölünə çevirən ermənidən indi əsər-əlamət qalmayıb. O zaman taleyin ümidində çabalayan, yeganə köməyi Türkiyədən olan Azərbaycan indi regionun ən güclü dövlətidir. Onun ordusu düşmənlərinə təkbaşına cavab verməK qüdrətindədir. İndi Azərbaycan özü bir çox məsələlərdə Türkiyəyə ciddi dəstək göstərir, ümumtürk birliyinə örnəklər verir. Bugünkü hərbi parad bir daha göstərdi ki, Azərbaycan işğal olunmuş torpaqlarını öz gücü ilə azad edəcəkdir. Əlbəttə, Türkiyə də həmişə olduğu kimi Azərbaycanın yanındadır. Azərbaycandakı qardaşlarımızı bu torpağa azadlıq gətirmiş günün 100 illiyi münasibətilə təbrik edir, ən qısa müddətdə Qarabağın da azadlığa qovuşmasını arzu edirik.

Qonaqlar redaksiyamızla böyük maraqla tanış oldular, xalqımıza salam və sayğılarını yetirməyimizi xahiş etdilər. Bir zamanlar Nuru paşaların gəldikləri qanlı yolun dinc elçilərinin redaksiyamıza gəlişi kollektivimizin bayram sevincinə xoş ovqat qatdı. Xatırladaq ki, qonaqlarımızın ölkəmizə səfərini Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyi təşkil etmişdir.

***Tahir AYDINOĞLU, "Xalq qəzeti"***